Ədəbiyyat qəzeti

25 iyul / 2020

Hörmətli Nəriman müəllim. Salam. Mənə həsr etdiyiniz "Dostum Etibara" şeirinizi böyük həyəcan və minnətdarlıq hissilə oxudum. Təşəkkürlərim sonsuzdur. Ölkənin ən sevilən, oxunan, hörmət edilən böyük şairinin hər hansı bir şəxsə şeir həsr etməsi, şeirin ithaf olunduğu insan üçün, təbii ki, unudulmaz bir hadisədir.

Bu şeir 2016-cı ildə, mənim həyatımda baş vermiş bir hadisə ilə bağlıdır. Ağır məşəqqətlər yaşadığım həmin günlərdə siz nəinki məni tək qoymadınız, nəinki mənə həyan olmadınız, eyni zamanda böyük dostunuz, dünya şöhrətli loğman - akademik Əhliman Əmiraslanovun sayəsində məni ikinci dəfə həyata qaytardınız.

Əziz Nəriman müəllim. Mən sizi uşaq yaşlarımdan tanıyıram. Rəhmətlik atamın ən yaxın dostlarından biri olmusunuz. Əhliman müəllimi isə həmin günlərdə tanıdım. Bu böyük insanın yüksək mədəniyyəti, alicənablığı, müstəsna müdrikliyi, pasiyentlərinə olan həssas qayğısı, sevgisi, insanlara etdiyi təmənnasız - böyük yaxşılıqlardan zövq alması, sizin dediyiniz kimi, "ilahi əxlaqı"... ömürlük olaraq yaddaşıma həkk olundu... Əhliman müəllimin mənim boynumda heç vaxt qaytara bilməyəcəyim haqqı qaldı. Yaxşılıqlar itmir deyirlər. Mən sizə həm də ona görə minnətdaram ki, Əhliman müəllimin mənə etdiyi o əvəzsiz yaxşılığa - mənə həsr etdiyiniz şeirinizlə bir əbədiyaşarlıq qazandırdınız...

Şeirə görə sizə bir daha təşəkkür edirəm.

Dərin hörmət hissi ilə:

***Etibar ƏBİLOV***

*20.07.2020*

*Neftçala*